**Vüsalə Səfər qızı ƏLİYEVA**
Odlar Yurdu Universitetinin doktorantı
E-mail: aliyeva_vusalya@mail.ru

# REGİONLARDA ƏHALİ İSTEHLAKININ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

**Xülasə**

Məqalədə müvafiq dövr ərzində regional istehlak bazarının tənzimlənməsi, vergi, gömrük, rüsum və digər fiskal alətlərin tətbiqi, dövlət sifarişləri, investisiyalaşdırma, qiymətlər sistemi və digər metodlar öz əksini tapmışdır. Əhalinin ərzaq istehlakı bazarının tənzimlənməsi zamanı məqsədəuyğun hesab edilən tədbirlərdən: xarici ticarət əməliyyatlarında səmərəliliyin artırılması, idxal-ixrac əməliyyatlarının tənzimlənməsi, əhali arasında istehlak kooperasiyalarının yaradılmasının təşviq edilməsi, regional iqtisadi inkişaf mexanizmlərin qurulması, regionlarda əhalinin məşğulluğunun təmini məqsədilə iş yerlərinin açılması və gəlirlərinin yüksəldilməsi, regionlarda demoqrafik tənzimlənmə mexanizmlərinin həyata keçirilməsi məsələləri şərh olunmuşdur. Paralel olaraq 2004- cü ildən sonra uğurla həyata keçirilən regionların sosial iqtisadi inkişafı dövlət proqramları, ayrı-ayrı iqtisadi sahələrin inkişafı ilə bağlı qəbul edilmiş və real nəticələrlə gerçəkləşmiş tədbirlərin region əhalisinin istehlak vəziyyətini yaxşılaşdırılması istiqamətləri təhlil olunmuşdur.

***Açar sözlər:*** istehlak, həyat səviyyəsi, iqtisadi sahələr, regional inkişaf, iqtisadi rayonlar.

## Giriş

Müasir dünya ölkələrində əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ölkənin regionlarında yaşayan əhalinin rifah halının yüksəldilməsi, regionların inkişafı prioritet təşkil edir. Əhalinin həyat səviyyəsi, iqtisadi göstəricilərin, istehlak strukturunun dəyişikliklərində regionlararası fərqlərin artması istehlak strukturunu müəyyənləşdirən amillərin təsirinin spesifik şəraitini formalaşdırır.

Ümumiyyətlə iqtisadi proseslərin səmərəliliyi çoxsaylı amillərin təsiri ilə formalaşır. İqtisadiyyatın ərazi təşkilini, o cümlədən regional inkişaf tempini şərtləndirən amillərin təsirinin məkan və zaman parametrlərinin xarakteristikası təcrübi problemlərin kompleks tədqiqini tələb edir. İqtisadi inkişafın regionlarda fərqli səviyyəsi, demək olar ki, bütün ölkələrdə mövcuddur. Belə ki, hər bir ölkədə regionlar inkişaf səviyyəsinə görə fərqlənir. İqtisadi resursların müxtəlif regionlarda fərqli həcmi burada əsas rol oynayır.

Regionlarda iqtisadi fəallığın təmin edilməsi həm də infrastruktur amilləri ilə bağlıdır. Reginal iqtisadiyyatın davamlı inkişafı üçün bölgələrdə iqtisadi fəaliyyət sahələri genişlənməli, zəruri məhsul növlərinin istehsalı artırılmalı, ticarət dövriyyəsi yüksəlməli xidmət sahələri ən müasir texnologiya ilə təchiz edilməlidir.

Respublikamızda regionların sosial-iqtisadi inkişafının təmmin edilməsi məqsədilə 2004 cü ildən bu yana davamlı beş illik dövlət proqramları hazırlanaraq uğurla həyata keçirilir. Bununla əlaqədar olaraq, 2004-2008, 2009-2013, 2014-2018-ci illər ərzində həyata keçirilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla nəticələr vermiş,regionlarda infrastrukturun inkişafı xüsusilə müasir standartlara uyğun magistral və daxili yolların tikintisi və təmiri inkişafı kommunikasiya xəttlərinin təmiri, region əhalsinin mənzil kommunal şəraitinin yaxşılaşdırılması ilə bağlı icra edilən proqramlar,regionların içməli su, elektrik təchizatı və təbii qaza olan tələbatına uyğun təchizatın artırılması, 2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına və ölkədə yoxsulluğun azaldılması və davamlı inkişafı ilə bağlı qəbul edilmiş Dövlət Proqramları çərçivəsində bu sahədə bir sıra institusional islahatlar həyata keçirilmişdir.Hal hazırda 2019-2023 cü illəri əhatə edəcək Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramının icrası uğurla davam etdirilir. Ölkəmizdə regionların inkişaf etdirilməsi, uğurlu inkişaf strategiyasının mərkəzində dayanan mühüm bir məsələdir.

Strateji əhəmiyyətə malik bu dövlət proqramlarında, habelə regional inkişafa rəvac verən digər əlavə sosial-iqtisadi tədbirləri əks etdirən normativ aktlarda, normayaradıcı sənədlərdə nəzərdə tutulan vəzifələrin uğurlu icrası, ölkədə iqtisadi sahələrin xüsusilə, qeyri-neft sektorunun regional və sahəvi olmaqla diversifikasiyalı inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, regionlarda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə müsbət təsirini göstərmişdir.

**Azərbaycanda regionlarda əmək resursları potensialının təhlili**

Azərbaycanda regional iqtisadiyyatın əsas sektorlarından birini aqrar sahə təşkil edir. Aqrar istehsalın artırılması, paralel olaraq bütün ölkə ərazisində ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas təminedici baza rolunu oynayır. Burada diqqəti cəlb edən digər bir məsələ bu sahəni texnika texnologiya ilə təmin edən digər sahələrin inkişafı məsələsidir. Digər tərəfdən kənd yerlərinin inkişafı kənd əhalisinin məşğulluğunun təmini,eləcə də region əhalisinin ərzaq istehlakı məsələsi daim diqqət mərkəzində qalan məsələlərdəndir. İqtisadiyyatda əsas amillərindən biri olan əmək resurslarının əhəmiyyətli hissəsi də məhz region əhalisinin fəaliyyəti hesabına təmin edilir. Azərbaycanda aqrar sahədə aparılan köklü islahatlar əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsində mühüm rol oynayır. Azərbaycanda region əhalisinin ərzaq istehlakı xüsusi əhəmiyyət kəsb edir və tədqiqat obyektlərindən biri hesab olunur.

2020-ci ilin sentyabr-noyabr ayları ərzində Ali Baş Komandanın rəhbərliyi altında Şanlı Ordumuz tərəfindən əks-hücum əməliyyatları ilə uğurla başa çatdırılmış "Zəfər yürüşü" nəticəsində tarixən Azərbaycana məxsus Qarabağ torpaqları işğaldan azad edilmişdir. Ali Baş komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən 30 il ərzində işğala məruz qalmış torpaqlarımızın azad olunması bu regionların potensial imkanlarından geniş istifadə edilməsi və bu iqtisadi regionlarda əlverişli təbii resursların xüsusilə münbit torpaq ehtiyatının, faydalı yeraltı sərvətlərin,meşə təsərrüfatının milli qoruqların mövcudluğu iqtisadiyyatın müxtəlif sahələri o cümlədən kənd təsərrüfatının, turizmin ,sənayenin və digər sahələrin inkişafı baxımından da yeni imkanlar yaratmışdır.

İşğaldan azad edilmiş ərazilərin bərpa edilməsi, gələcək inkişafı, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində aparılan islahatların davamı olaraq ölkə başçısı cənab İlham Əliyevin 2021-ci ildə təsdiqlənmiş "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanı ilə yeni "Şərqi Zəngəzur" və "Qarabağ" iqtisadi rayonları yaradılmış və bir neçə iqtisadi rayonlarda struktur dəyişiklikləri edilərək fərqli adlarla yenidən təşkil edilmişdir [1].

**Cədvəl 1.**

**2001-2021 ci illərdə ölkə iqtisadiyyatının bəzi göstəricilərinin dinamikası**

| Illər | Ümumi əhali Min nəfər | Adambaşına Düşən ÜDM manat | İqtisadi sahələr üzrə məşğul əhali min nəfər | Aqrar sahədə çalışan əhali sayı min nəfər | Aqrar məşğulluq Payı % lə | Aqrar sahədə muzdla çalışan əhali sayı | Aqrar Sahədə muzdla çalışanların faizi |
|---|---|---|---|---|---|---|---|
| 2001 | 8114.3 | 661.7 | 3891.4 | 1521.7 | 39.1 | 66.2 | 4.4 |
| 2006 | 8553.1 | 2208.2 | 4110.8 | 1583.2 | 38.5 | 47.1 | 3.0 |
| 2011 | 9111.1 | 5752.9 | 4375.2 | 1657.4 | 37.9 | 41.0 | 2.5 |
| 2016 | 9705.6 | 6269.6 | 4759.9 | 1729.6 | 36.3 | 47.2 | 2.7 |
| 2017 | 9810.0 | 7226.0 | 4822.1 | 1752.9 | 36.4 | 49.4 | 2.8 |
| 2018 | 9898.1 | 8156.2 | 4879.3 | 1769.3 | 36.3 | 51.3 | 2.9 |
| 2019 | 9981.5 | 8268.8 | 4938.5 | 1777.7 | 36 | 54.2 | 3.0 |
| 2020 | 10067.1 | 7277.4 | 4876.6 | 1771.9 | 36.3 | 61.2 | 3.5 |
| 2021 | 10119.1 | 9269.3 | 4988.2 | 1809.9 | 36.3 | 61.5 | 3.4 |

**Mənbə:** Cədvəl ADSK.məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

Son 20 il ərzində ölkədə ümumi əhalinin sayı 25,0% artaraq 10,1 milyon nəfər olmuşdur ki, onun da təqribən 47%-i kənd yerlərində məskunlaşıb.

Cədvəldən 1-dən göründüyü kimi, ölkədə adambaşına düşən ÜDM isə təqribən 14 dəfə artaraq 9,3 min manata çatıb.

Azərbaycanda əhalinin əksər hissəsi (23% və ya 2,3 milyon nəfəri) paytaxt Bakı şəhərində, 9%-i (959,4 min nəfər) Lənkəran-Astara iqtisadi rayonunda, 9%-i (907,9 min nəfər) Qarabağ iqtisadi rayonunda, qalan 59%-i (6,0 milyon nəfəri) isə 11 iqtisadi rayonda məskunlaşıb. Azərbaycanda aqrar sahədə təqribən 1,8 milyon nəfər çalışır ki, bu da məşğul əhalinin 36,3 faizini təşkil edir. Ölkədəki aqrar məşğulluq son 20 ildə 288,2 min nəfər artsa da, təqribən 2,8 faiz bəndi qədər azalmışdır. Hazırda məşğul əhalinin sayı 5,0 milyon nəfərdir ki, bu da ümumi əhalinin 49,3%-ni təşkil edir Ölkədə iqtisadiyyat sahələri üzrə cəmi məşğul əhalinin 24%-i (1,2 milyon nəfəri) Bakı şəhəri, 9%-i (443,7 min nəfəri) Lənkəran iqtisadi rayonu, 6%-i (402,4 min nəfəri) Qarabağ iqtisadi rayonunun payına düşür. Hazırda aqrar sahədə çalışan muzdlu işçilərin sayı təqribən 61,5 min nəfərdir ki, bu da qeyd edilən sahə üzrə cəmi məşğul olan əhalinin 3,4 faizi deməkdir. Bu pay son 20 ildə 1,0 faiz bəndi az, son 10 illə müqayisədə isə 0,9 faiz bəndi çoxdur. Eyni zamanda onu da qeyd edək ki, bu sahədə muzdla çalışan əhalinin cəmi muzdla çalışan işçilərdəki payı da son 20 illə müqayisədə 1,9 faiz bəndi azalmışdır. Hazırda aqrar sahədə çalışan muzdlu işçilərin sayı təqribən 61,5 min nəfərdir ki, bu da qeyd edilən sahə üzrə cəmi məşğul olan əhalinin 3,4 faizi deməkdir. Bu pay son 20 ildə 1,0 faiz bəndi az, son 10 illə müqayisədə isə 0,9 faiz bəndi çoxdur. Eyni zamanda onu da qeyd edək ki, bu sahədə muzdla çalışan əhalinin cəmi muzdla çalışan işçilərdəki payı da son 20 illə müqayisədə 1,9 faiz bəndi azalmışdır.

**Regionlarda əhalinin istehlakının təhlili**

Əhali gəlirlərinin, onların istehlak xərcləri xüsusilə ərzaq məhsullarına çəkilən xərclərin payını əks etdirən göstəricilərin təhlili əhalinin ərzaqla təminatının yaxşılaşdırılması istiqamətində aparılan məsələlərdən biridir. Belə ki statistik məlumatlara əsasən il ərzində əhalinin ümumi gəlirlərinin həcmi 30,5 milyard manatdan 57,2 milyard manata, ümumi xərclərinin həcmi isə 22,2 milyard manatdan 55,2 milyard manata yüksəlmişdir. Aparılmış hesablamalara əsasən, 2021-ci ildə əhalinin hər nəfərinə düşən gəlirlərin həcmi 5651 manat, xərclərinin həcmi isə 5455 manat olmuşdur. Əhalinin son istehlak xərcləri isə müqayisə edilən dövrdə təqribən 2,5 dəfə artmış və 48,4 milyarda çatmışdır. 2021-ci ildə adambaşına düşən istehlak xərcləri də artaraq 4781 manat təşkil edib.

Cədvəldən göründüyü kimi əhalinin son istehlak xərclərinin ümumi xərclərdəki payı həmin dövrdə 87-91% aralığında dəyişmişdir, bu da ölkəmizdə orta hesabla əhali xərclərinin 89%-nin istehlak xərcləri olduğunun deməyə əsas verir. Qeyd edilən dövr ərzində hesablamalara əsasən, əhali xərclərinin gəlirlərə nisbəti 73%-dən 24 faiz bəndi artaraq 2021-ci ildə 97% həddinə yüksəlib, yəni orta hesabla xərclər gəlirlərin 88%-ni təşkil edir. Müvafiq dövrdə ümumi xərclərin gəlirlərə nisbətinin yüksəlməsinin səbəbi həm də son istehlak xərclərinin strukturdakı payının çox olması ilə, dolayısı ilə son dövrlər yaranan ərzaq bazarında yaranan qlobal problemlərlə və inflasiya, pandemiya kimi digər problemlərlə izah edilə bilər.

**Cədvəl 2.**

**2001-2021 ci illərdə ölkənin hər nəfərinə gəlirlər və xərclərin dinamikası, manat**

| İllər | 2011 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| əhalinin hər nəfərinə düşən gəlirlər, manat | 3350 | 4677 | 5014 | 5365 | 5687 | 5538 | 5651 |
| əhalinin hər nəfərinə düşən xərclər | 2435 | 4098 | 4536 | 4805 | 5202 | 4949 | 5455 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Statistikaya əsasən iqtisadiyyat sahələri üzrə 2021-ci ildə 102,4 milyard manat məhsul buraxılışı olmuşdur ki, Bakı şəhərinin 69% yəni mütləq ifadədə 70,4 milyard manatı, Abşeron-Xızı iqtisadi rayonu üzrə 6%-i (6,2 milyard manatı), Naxçıvan Muxtar Respublikası üzrə 4%-i (3,8 milyard manatı), qalan 21%-i isə digər rayonlar əhatə edir. Son 10 il ərzində iqtisadiyyatın ümumi sahələrindəki

məhsul buraxılışına görə regional göstəricilərin zaman dinamikasında hiss olunan səviyyədə artım Abşeron-Xızı və Qarabağ iqtisadi rayonlarında müşahidə edilir.

Region əhalisinin gəlirlərini təhlil etdikdə də, oxşar tendensiya müşahidə edilir. Belə ki, həmin il üzrə ölkə əhalisinin ümumi gəlirlərinin həcmi 57,2 milyard manat olmuşdur ki, onun 59%-i (33,6 milyard manat) Bakı şəhərinin, 5%-i (2,9 milyard manat) Mərkəzi Aran iqtisadi rayonunun, 4%-i (2,5 milyard manat) Abşeron-Xızı iqtisadi rayonunun, qalan 32%-i isə digər rayonlar təşkil edir. Son 10 il ərzində əhali gəlirlərinin dinamikasında hiss olunan səviyyədə artım məhz Bakı şəhəri və Abşeron-Xızı iqtisadi rayonundadır.

İstehlak bazarının araşdırılması zamanı müəyyən olunmuşdur ki,əhalinin hər nəfərinə düşən dəyəri 5286 manat olmuşdur. Bakı şəhərində 12394 manat, Naxçıvan M.R.-da 4414 manat, Abşeron-Xızı iqtisadi rayonunda isə 3447 manat adambaşına istehlak bazarı həcmi təşkil edir

Statistik təhlillər əsasında müəyyən edilmişdir ki, ev təsərrüfatlarında adambaşına düşən istehlak xərclərinə görə reytinq göstəricilərinə əsasən ilk sıralamada Bakı şəhəri (332 manat), Naxçıvan M.R.(325 manat) və Abşeron-Xızı iqtisadi rayonu (316 manat) fərqlənir. Bu təsərrüfatlarda hər nəfərə düşən ərzaq məhsullarının həcminə görə də eyni iqtisadi rayonlar fərqlənir: müvafiq olaraq, Bakı şəhərində 150 manat, Naxçıvan M.R.-də 139 manat və Abşeron-Xızı iqtisadi rayonunda 137 manat olmuşdur. Ev təsərrüfatlarında ərzaq xərclərinin ümumi istehlak xərclərindəki payı isə Lənkəran-Astara (45,8%) iqtisadi rayonunda daha çoxdur. Aparılan hesablamalara görə, ayrı-ayrı kənd təsərrüfatı və ərzaq məhsullarının ev təsərrüfatlarında hər nəfərinə düşən istehlak həcminə görə Şirvan-Salyan, Qazax-Tovuz və Abşeron-Xızı iqtisadi rayonları digərlərindən çoxdur. Bu rayonlarda demək olar ki, əksər ərzaq məhsullarının adambaşına istehlak həcmi ölkə üzrə orta göstəricidən yüksəkdir.

Regionların sosial-iqtisadi göstəriciləri və region əhalisinin istehlakının təhlilinə əsasən, Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və Abşeron-Xızı iqtisadi rayonları üzrə sosial-iqtisadi göstəricilər, o cümlədən məşğul əhalinin və muzdlu işçilərin sayı, əmək haqqı səviyyəsi, adambaşına illik gəliri və həmçinin istehlak bazarının həcminə görə reytinq sıralamasında ilk yerlərdə qərarlaşmışdır.Aqraryönümlü göstəricilərdə, aqrar məhsul buraxılışı, aqrar sahədə məşğulluq və bu kimi digər göstəricilərdə Qazax-Tovuz, Quba-Xaçmaz və Lənkəran-Astara və qismən Qarabağ iqtisadi rayonları öncüllük edirlər.

Region əhalisinin məşğulluğu və gəlirlərinin formalaşmasında mühüm yer tutan kənd təsərrüfatı sahəsində yeni inkişaf istiqamətləri müşahidə olunur. Statistik təhlillər onu deməyə əsas verir ki, 2011-2021-ci illər ərzində ölkədə real ifadədə kənd təsərrüfatı məhsulları istehsalı 46,8% o cümlədən bitkiçilik məhsulları istehsalı 53,0%, heyvandarlıq məhsulları istehsalı 42,5%), balıqçılıq məhsulları istehsalı isə 3,6% artıb. ÜDM-də Kənd təsərrüfatı, meşə və balıqçılıq sahələrində yaradılan əlavə dəyərin payı 2011-ci ildə 5,1%, 2021-ci ildə 5,9% olub. Ümumiyyətlə, 2021-ci ildə ölkədə 9,2 milyard manat məbləğində kənd təsərrüfatı məhsulu istehsal edilib ki, onun da 50,8-i heyvandarlıq, 49,2%-i bitkiçilik sahəsinə düşmüşdür. İstehsal edilmiş kənd təsərrüfatı məhsulunun 90%-dən çox hissəsi məhz fərdi sahibkarlar, ailə-fermer və ev təsərrüfatlarının payına düşür. Bu il ərzində aqrar sektorda yaradılmış əlavə dəyərin yəni aqrar ÜDM-nin həcmi 5,5 milyard olmuşdur. Son illər ərzində kənd təsərrüfatı məhsulları istehsalının artımı əksər sahələr üçün xarakterik olmuş, heyvandarlıq sahəsində artım isə tədricən intensiv inkişafa əsaslanmağa başlamış, bitkiçilik sahəsi üzrə artımda həm intensiv, həm də ekstensiv amillər xüsusi yer tutur. Təhlil zamanı müəyyən edilmişdir ki, 2011-2021-ci illər ərzində kənd təsərrüfatı məhsullarının emalı sənayesində yüksək artım dinamikası müşahidə olunmuşdur. Bu dövr ərzində qida məhsulları istehsalı 47,6% artmışdır.

Region əhalisinin istehlakında mühüm yer tutan ərzaq məhsullarının istehsalının inkişafında dəyər zənciri yanaşması üstünlük təşkil edir. Belə ki, hazırda qlobal səviyyədə kənd təsərrüfatı məhsullarının emalı sənayesində istehsalın artım tempi ilkin kənd təsərrüfatı məhsullarının istehsal tempindən yüksəkdir, buna uyğun olaraq aqro-ərzaq məhsulları üzrə ticarətin artım tempi də istehsalın artım tempini

ciddi şəkildə üstələyir və aqro-ərzaq məhsulları üzrə qlobal ticarətdə emal olunmuş məhsulların daha böyük paya malikdir.

Regional iqtisadiyyatda ərzaq məhsullarına əlyetərliliyin təmin edilməsi məsələsi ərzaq təhlükəsizliyinə nail olunması baxımından mühüm məsələlərdəndir. Ərzaq məhsullarının əlyetərliliyinin təmin edilməsi zamanı isə ərzaq məhsulları əhalinin ehtiyaclarına uyğun şəkildə, kəmiyyət və keyfiyyət baxımından kifayət səviyyədə mövcudluğu is əhalinin faktiki istehlak göstəriciləri artır.

**Nəticə**

Araşdırmalar onu deməyə əsas verir ki, regional istehlak bazarının tənzimlənməsi bazar iqtisadi sisteminin əsasını təşkil edən qiymətlərin tənzimlənməsindən tələb, təklif və təkmil rəqabətin təmin olunması vasitəsilə həyata keçirilir.Mövcud dövrdə regional istehlak bazarının tənzimlənməsi dövlət sifarişləri, vergi, gömrük, rüsum və digər fiskal alətlərin tətbiqi, investisiyalaşdırma, qiymətlər sistemi, stimullaşdırma, inzibati məhdudlaşdırma və digər metodlar daxildir. Bu əsaslarla da əhalinin ərzaq istehlakı bazarının tənzimlənməsi zamanı aşağıdakı istiqamətlərin nəzərə alınması məqsədəuyğun hesab edilir: xarici ticarət əməliyyatlarında səmərəliliyin artırılması: beynəlxalq sertifikatların, lisenziyaların, idxal-ixrac əməliyyatlarının tənzimlənməsi; əhali arasında istehlak kooperasiyalarının yaradılmasının təşviq edilməsi, regional iqtisadi inkişaf mexanizmlərin qurulması; regionlarda əhalinin məşğulluğunun təmini məqsədilə iş yerlərinin açılması və gəlirlərinin yüksəldilməsi, regionlarda demoqrafik tənzimlənmə mexanizmlərinin həyata keçirilməsi.

Yekun olaraq qeyd eləmək istəyərdik ki, Respublikamızın əlverişli coğrafiyada yerləşməsi,iqlim şəraiti 2004 cü ildən bu yana uğurla həyata keçirilən Regionların sosial iqtisadi dövlət proqramları ayrı ayrı iqtisadi sahələrin inkişafı ilə bağlı qəbul edilmiş və real nəticələrlə gerçəkləşmiş addımlar, region əhalisinin istehlak vəziyyətini yaxşılaşdırmışdır.Gələcəkdə də bu istiqamətdə müvafiq işlərin davam etdirilməsi zəruridir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, // 7 iyul 2021-ci ildə təsdiq edilmişdir. - Bakı: Qanun, - 2021, - 2 s. URL: https://e-qanun.az/framework/48050
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı // Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 saylı Fərmanı ilə təsdiq edilmişdir. – Bakı: Qanun, - 2019, - 93 s. URL:https://e-qanun.az/framework/41320
3. https://www.stat.gov.az/ Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı.

**Вусаля Сафар кызы Алиева**
Докторант Университета Одлар Юрду
E-mail: aliyeva_vusalya@mail.ru

**АНАЛИЗ ТЕКУЩЕГО СОСТОЯНИЯ ПОТРЕБЛЕНИЯ НАСЕЛЕНИЯ В РЕГИОНАХ**

**Резюме**

В статье отражены регулирование регионального потребительского рынка, применение налоговых, таможенных, пошлинных и других фискальных инструментов, государственных заказов, инвестиционной, ценовой и других методов. Среди мер, признанных целесообразными при регулировании рынка продовольственного потребления населения: повышение эффективности внешнеторговых операций, регулирование импортно-экспортных операций, содействие созданию потребительской кооперации среди населения, создание

региональных механизмов экономического развития, открытие рабочих мест и повышение доходов в регионах в целях обеспечения занятости населения в регионах разъяснены вопросы реализации механизмов демографического регулирования Параллельно успешно реализовывались государственные программы социально-экономического развития регионов после 2004 года, проанализированы принятые и реализуемые с реальными результатами меры, связанные с развитием отдельных отраслей экономики, и направления улучшения потребительской ситуации населения региона.

**Ключевые слова:** потребление, уровень жизни, экономические районы, региональное развитие, экономические районы.

**Vusala Safar ALIYEVA**
Doctoral student of Odlar Yurdu University
E-mail: aliyeva_vusalya@mail.ru

## ANALYSIS OF THE CURRENT STATE OF POPULATION CONSUMPTION IN THE REGIONS

### Summary

The regulation of the regional consumer market, application of tax, customs, duty and other fiscal instruments, state orders, investment, price system and other methods are reflected in the article. Among the measures considered appropriate during the regulation of the food consumption market of the population: increasing the efficiency of foreign trade operations, regulating import-export operations, promoting the creation of consumer cooperatives among the population, establishing regional economic development mechanisms, opening jobs and increasing incomes in the regions in order to ensure the employment of the population in the regions. the issues of implementation of demographic regulation mechanisms were explained. In parallel, the social and economic development state programs of the regions that were successfully implemented after 2004, the measures adopted and realized with real results related to the development of individual economic sectors, and the directions of improving the consumption situation of the regional population were analyzed.

**Keywords:** consumption, standard of living, economic areas, regional development, economic regions

**Daxil olub:** 29.02.2023